

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (23.717)

27 aprel 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika



Aprelin 26-da BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının “Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması” mövzusuna həsr edilən 77-ci sessiyası öz işinə başlayıb. Sessiyanın Asiya və Sakit okean regionu ölkələrinin dövlət və hökumət başçılarının çıxışları seqmentində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.

Dövlətimizin başçısı çıxışında bildirib ki, Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Bu yaxınlarda BMT-nin İnsan Hüquqları Şurası Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş, ölkələrin vaksinlərə bərabər çıxışı ilə bağlı qətnaməni yekdilliklə qəbul edib.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsindəki tarixi qələbədən, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işlərindən, Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq “Zəngəzur nəqliyyat dəhlizi” üzərində çalışılmasından danışıb.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında oldular.

## Qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində işlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il 9 avqust tarixli Sərəncamla təsdiq edilmiş “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”da Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə verilmiş vəzifələr və qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində işlər 2021-ci ilin birinci rübündə də davam etdirilib.***

Mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsilə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə 27 POS-terminal aparatı quraşdırılıb, ümumi POS-terminal aparatlarının sayı 1437-yə çatdırılıb, bankomat aparatlarının sayı 1 vahid artaraq 115 ədəd olubdur. Bu dövrdə nağdsız ödənişlərin həcmi 28 milyon 354 min 983 manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 milyon 164 min 243 manat çoxdur.

Müvafiq dövlət orqanları ilə birlikdə 2022-ci ilədək özəl sektorda çalışan işçilərin əməkhaqlarının nağdsız formada (ödəniş kartları vasitəsilə) ödənişinin başa çatdırılması üçün vergi orqanları tərəfindən vergiödəyiciləri və sahibkarlar arasında maarifləndirmə işləri aparılıb və 2021-ci ilin birinci rübü ərzində özəl sektorda 42 vergiödəyicisi üzrə 302 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilib.

Yeni yaradılan publik hüquqi şəxs statuslu müəssisələrdə mütəmadi maarifləndirmə işləri aparılmaqla, 3 publik hüquqi şəxsin 10 obyektində ödənişlərin nağdsız qaydada aparılması üçün POS-terminalların quraşdırılması təmin edilib. Dövlət proqramına əsasən muxtar respublika ərazisində fəaliyyət göstərən POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyektləri sahiblərinin ödəniş kartları ilə təmin edilməsi, həmin şəxslər tərəfindən fəaliyyət göstərdiyi sahələr üzrə vergilərin, sosial ayırmaların, sığorta məbləğlərinin, kommunal xərclərin və dövlət büdcəsinə digər ödənişlərin tamamilə nağdsız şəkildə ödənilməsi üçün ödənişlərin dövlət büdcəsinə onlara məxsus ödəniş kartları vasitəsilə nağdsız aparılması ilə bağlı yerlərdə maarifləndirici tədbirlər keçirilib, qeyd edilən dövrdə 203 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 77475 manat, 506 vergiödəyicisi tərəfindən isə öz şəxsi kartları (şəxsi istifadə, birkart, təqaüd və digər kartlar) vasitəsilə 157178 manat vergi, sosial və dövlət büdcəsinə digər ödənişlər nağdsız qaydada ödənilib.

Xidmət mərkəzləri və POS-terminal quraşdırılmış kənd mərkəzlərində birinci rüb üzrə sahibkarlıq subyektləri və vətəndaşlarla 7 halda maarifləndirici görüşlər keçirilib. 2021-ci ilin fevral ayında nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 14-cü tirajı keçirilib və muxtar respublika üzrə 442 vətəndaşa 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

Dövlət proqramının icrası ilə əlaqədar Dövlət Vergi Xidmətinin qarşısına qoyulan tapşırıqların icrası daim diqqət mərkəzində saxlanılmaqla, muxtar respublikada nağdsız ödənişlərin genişləndirilməsi və ümumi iqtisadiyyatın inkişafı istiqamətində işlər davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti**

***Müsabiqə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması Qaydaları”na əsasən keçirilir.***

## Tibb işçilərinin müsabiqə ilə işə qəbuluna start verilib



Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq tibb işçilərinin işə qəbulu üzrə müsabiqə keçirilir. Müsabiqədə iştirak etmək üçün 116 namizəd sənəd təqdim edib. 26-30 aprel tarixlərində keçiriləcək imtahanın sualları test və klinik tapşırıq hissələrinə bölünür. İmtahan suallarının test hissəsi 60 sualdan ibarətdir. Test hissəsi üzrə hər bir düzgün cavab bir balla qiymətləndirilir. Test imtahanının nəticələrinə əsasən 40 və ya daha çox bal toplamış şəxslər imtahandan keçmiş hesab olunur. İmtahan bitəndən dərhal sonra namizədə imtahan nəticəsi barədə arayış verilir. Nəticələr Dövlət İmtahan Mərkəzinin internet portalında yerləşdirilir.

İmtahan suallarının klinik tapşırıq hissəsi isə namizədin ixtisasına aid, habelə onun praktik bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən 5 sualdan ibarət olmaqla yazılı şəkildə keçiriləcək.

İmtahan suallarının klinik tapşırıq hissəsi üzrə cavabların qiymətləndirilməsi mütəxəssislər cəlb edilməklə təmin ediləcək. Klinik tapşırıq hissəsi üzrə hər bir suala verilən cavab mütəxəssis tərəfindən 5 ballıq sistemlə qiymətləndirilir, 16 və ya daha çox bal toplamış şəxslər bu mərhələdən keçmiş hesab olunacaqlar. İmtahan suallarının test və klinik tapşırıq hissələri üzrə toplanılan ballar ümumiləşdirilərək yekun bal çıxarılacaq.

Müsabiqədə müvəffəqiyyət qazanmış namizədlərin siyahısı vakant vəzifələr üzrə təyinat aparılması üçün müsabiqə başa çatdıqdan sonra 3 iş günü ərzində Səhiyyə Nazirliyinə göndəriləcək. Namizədlər arasında daha yüksək bal toplamış şəxs vakant vəzifəyə təyin ediləcək.

Qeyd edək ki, 3-4 may tarixlərdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün də test imtahanı keçiriləcək.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

## Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılır



Muxtar respublikamızda uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən birini də əhalinin məşğulluğunun artırılması və rifahının daha da yüksəldilməsi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının aparılması və özünüməşğulluq imkanlarının genişləndirilməsi təşkil edir. Bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə qəbul edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” mühüm rol oynayır.

Əhalinin məşğulluğunun artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi cari ildə də uğurla davam etdirilir. 2021-ci ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına nəzər salsaq, görərik ki, muxtar respublikada 62 yeni iş yeri yaradılıb. Əmək bazarının tələblərinə uyğun olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər, dərzi, bərbər-manikürçü peşə hazırlığı, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər ixtisasartırma kurslarına, ümumilikdə, 91 nəfər cəlb edilib. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə ixtisas təhsili müəssisələrində 755 nəfər müxtəlif peşələrə yiyələnib.

Bu gün muxtar respublikamızda aparılan kompleks quruculuq işləri insanların sosial rifah halının yaxşılaşması, yeni iş yerlərinin açılması və məşğulluğun təmin edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Cari ilin əvvəlində əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində xidmət mərkəzləri istifadəyə verilib. Həmin mərkəzlərdə xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılıb. Burada bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, dərzi yeri açılıb, 6 sakin işlə təmin olunub. Mağazada ailə təsərrüfatlarında istehsal edilmiş məhsulların satışına üstünlük verilməsi isə kənd əhalisinin məşğulluğunu daha da artırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” həm də iqtisadi sahədə səmərəli təşəbbüskarlığa yönəldilib. Bu sahədə həyata keçirilən tədbirlər, sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı məşğulluq sahəsində də səmərəliliyin artırılmasına səbəb olub. Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəldib, əmtəə dövriyyəsinin həcmini genişləndirib.

Bütün bunlar onu göstərir ki, muxtar respublikamızda insanların sosial müdafiəsinin gücləndirilməsi, məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır və uğurlu gələcəyə hesablanıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Yeni bağça binasının tikintisi aparılır

Son illərdə Naxçıvan şəhərində bir neçə yeni uşaq bağçası tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, artan əhali tələbatına uyğun olaraq fəaliyyətləri təmin edilmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan şəhərinin “İstiqlal” küçəsində daha bir uşaq bağçası üçün bina tikilir.



Tikintiyə ötən ilin sentyabr ayından başlanılıb. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan, 210 uşaq yerlik binada beton-qəlib işləri başa çatdırılıb, birinci və ikinci mərtəbələrdə hörgü işləri yekunlaşdırılıb. Üçüncü mərtəbədə isə arakəsmə işləri davam etdirilir. Layihəyə əsasən binanın zirzəmi hissəsində mətbəx, yeməkxana, camaşırxana, qazanxana, əyləncə zalı, anbar, oyun zalı, dərzi otaqları yerləşir. Digər mərtəbələrdə isə hər yaş qrupunda uşaqlar üçün sinif otaqları, oyun zalı, mətbəx, yeməkxana, tədbir və şənliklərin təşkili üçün zal, həmçinin iş otaqlarının hazırlanması nəzərdə tutulub.

Qeyd edək ki, yerli inşaat materiallarından istifadə olunan obyektin tikintisi Naxçıvan Şəhər Tikinti İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilir.

**Məcid RƏŞADƏTOĞLU**

# Muzey ziyarətləri davam edir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixdə imzaladığı “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamın icrası istiqamətində muxtar respublikada bütün idarə, müəssisə və təşkilatların muzeylərə kollektiv gedişi davam edir.*

Aprelin 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan şəhərində fəaliyyət göstərən “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.



“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin bələdçisi kollektivlərə məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb, Ali Məclis Sədrinin 2015-ci il 2 fevral tarixli Sərəncamına əsasən artıq “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyətini davam etdirir. Yarandığı dövrdə 150 eksponatla fəaliyyətə başlasa da, hazırda kompleksdə onların ümumi sayı 3 minə yaxındır. Həmin eksponatların 400-ü ekspozisiyada nümayiş olunur.

Möminə xatın türbəsi ilə tanışlıq zamanı isə məlumat verilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatının məzarı üzərində tikilən məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa olunub. Abidə hələ on ikinci əsrdə qadına verilən dəyərin ifadəsi kimi Naxçıvan memarlıq məktəbinin ən dəyərli incilərindəndir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının kollektivi Ədəbiyyat Muzeyini, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini və Gülüstan türbəsini, Daxili İşlər Nazirliyinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Cəmşid Naxçıvanski Muzeyini, Ədliyyə Nazirliyi və Penitensiar Xidmət Aparatının əməkdaşları Xatirə Muzeyini, Fövqəladə Hallar Nazirliyi və struktur qurumların kollektivləri Bəhruz Kəngərli Muzeyini, Dövlət Gömrük Komitəsinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

Həmçinin Maliyyə Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, İqtisadiyyat Nazirliyinin kollektivi Qarabağlar Türbə Kompleksində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Duz Muzeyində, Kənd Təsərrüfatı Nazirliyi və “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Milli Dəyərlər Muzeyində, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumları, “Naxçıvanpoçt” publik hüquqi şəxsin əməkdaşları Yusif Küseyir oğlu məqbərəsində, Səhiyyə Nazirliyinin kollektivi Nəbatat bağında, Təhsil Nazirliyinin əməkdaşları Naxçıvan Biznes Mərkəzində, Mədəniyyət Nazirliyinin kollektivi Heydər Əliyev Muzeyində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində olublar.

Qeyd edək ki, aprelin 24-də muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da muzeyləri ziyarət ediblər.

✍ **Səbuhi HƏSƏNOV**

*COVID-19 pandemiyasının dünyadakı dağıdıcı təsirini göz önünə gətirdikdə belə bir böhran dövründə uşaq və gənclərin təhsil ehtiyaclarını ödəməyin çox vacib məsələ olduğu ön plana çıxdı. 2019-cu ilin sonundan etibarən yayılmağa başlayan bu virus bütün dünyanı öz cənginə aldı, bir çox sahə ilə yanaşı, elm sahəsinə də təsir edərək onu iflic vəziyyətə saldı. Hər bir ölkə bu çətin vəziyyətdən çıxış yolları axtarmağa başladı. İqtisadiyyatı zəif olan, ərzaq təhlükəsizliyinin təmin olunmasında problemlər yaşayan, təhsil, səhiyyə sistemləri inkişaf etməyən ölkələr pandemiya dövründə çətinliklərlə üzləşdi, hətta bir sıra ölkələrdə səhiyyə, təhsil sistemləri çökdü. Azərbaycanda isə Prezident cənab İlham Əliyevin tapşırığı ilə pandemiyanın ilk günlərindən həyata keçirilən qabaqlayıcı, operativ, çevik addımlar xalqımızı böyük bəladan qurtara bildi. Ölkə başçısı demişdir:* ***“Bildiyiniz kimi, mart ayının əvvəlindən məktəblər, ali məktəblər, bütün təhsil müəssisələri bağlandı və bunun əsas məqsədi uşaqları, yeniyetmələri xəstəlikdən qorumaq idi. Təbii ki, bu, təhsil sahəsinə mənfi təsir göstərmişdir. Ancaq hesab edirəm ki, biz görülmüş tədbirlər nəticəsində pandemiyanın təhsilə olan mənfi fəsadlarının böyük hissəsini aradan qaldıra bildik”.*** *Bütün bunlar bir daha təsdiq etdi ki, dövlət siyasətinin mərkəzində insan amili – Azərbaycan xalqı dayanır.*

# Naxçıvanda pandemiya dövründə təhsil

Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu, ərzaq təhlükəsizliyinin təmin olunması, təhsil, rabitə, səhiyyə, idman və digər sahələrdə aparılan məqsədyönlü, irəliyə doğru atılmış addımlar bu çətin vəziyyətdən az itki ilə çıxmağa şərait yaratdı. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” 2020-ci il 24 mart tarixli Fərmanına əsasən muxtar respublikada koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Səhiyyə müəssisələri müasir tibbi avadanlıqlar, dərman və ləvazimatlar, həmçinin dezinfeksiya məhlulları ilə təmin olundu. Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edənlərin sosial müdafiəsi də gücləndirilmiş, bununla bağlı müvafiq sərəncamlar imzalanmışdır. Məktəblər, ictimai nəqliyyatlar, küçələr, yollar mütəmadi dezinfeksiya olundu. Bu işlər indi də davam etdirilir. Yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsində muxtar respublikada pandemiya epidemiyaya çevrilmədi. *koronavirusinfo.az* saytında qeyd olunan ən son məlumatlara əsasən yenə də ölkə üzrə ən az yoluxma 0,04 faizlə Naxçıvandadır.

### *Bəzi inkişaf etmiş ölkələrdə pandemiya nəticəsində təhsil “sinifdə qaldı”*

Həyatımıza nüfuz edən pandemiyanın qarşısını almaq məqsədilə bir çox ölkələrdə ali təhsil müəssisələri, məktəblər bağlandı, məsafədən təhsil ön plana çıxdı. Lakin milyonlarla tələbə, şagird distant təhsil texnologiyaları və internetdən istifadə edə bilmədikləri üçün təhsildə geri qaldılar. Dünya miqyasında COVID-19-a qarşı aparılan tədbirlər nəticəsində milyardlarla tələbə, şagird təhsilini yarımçıq qoydu. Pandemiya universitet tələbələri üçün əsas problemlər yaratdı. Xüsusən də xarici tələbələr. Bir çox universitet tələbəsi sər-



hədlərin bağlanması, viza prosedurlarının dayandırılması və bu kimi tədbirlər və məhdudiyyətlər səbəbindən təhsillərini davam etdirə bilmədi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvanda təhsil alan xarici tələbələr də diqqətdən yayınmadı. Ötən dövrdə Ali Məclis Sədrinin tapşırığı ilə muxtar respublikada təhsil alan və pandemiya nəticəsində ölkələrinə gedə bilməyən tələbələrə ərzaq və Ramazan bayramı ilə əlaqədar iftar payları, həmçinin maddi yardımlar verildi.

Muxtar respublikamızda bu dövrdə sağlamlığımızı qorumaqla bərabər, şagird və tələbələrin təhsildə geri qalmamaları üçün də bir sıra addımlar atıldı, universitetlər, məktəblər və digər təhsilverən qurumlar onlayn şəkildə fəaliyyətə başladılar. Düzdür, üzbəüz təhsildən birbaşa məsafəli təhsilə keçmək və buna uyğunlaşmaq çətindir. Niyə çətindir? Birinci növbədə, ona görə ki, müəllim-tələbə auditoriyası üzbəüz təhsilə öyrəşib, ikinci, rabitə və internet xidmətləri düzgün təşkil olunmalı idi. Ancaq bunun da öhdəsindən gəldik. Çünki muxtar res-



publikanın paytaxtında və ən ucqar dağ kəndlərində belə, geniş zolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri qurulmuşdur. Bu da distant təhsilə keçməyi daha da asanlaşdırdı. Mövzuların şagirdlər tərəfindən daha dərindən mənimsənilməsi üçün Təhsil Nazirliyinin rəsmi internet portalında siniflər üzrə ayrı-ayrı fənlərdən videodərslər və elektron dərs resursları yerləşdirilmiş, vizuallaşdırılmış dərslər bölməsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən nazirliyin nəzdində təsis edilmiş “Texniki Servis Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikada bütün ümumtəhsil məktəblərində olan elektron texniki avadanlıqlara servis xidməti göstərir. Dünyada yayılmış pandemiya ilə əlaqədar olaraq ölkəmizdə, eləcə də muxtar respublikada təhsil müvəqqəti dayandırıldığı dövrdə mərkəz gücləndirilmiş iş rejimində fəaliyyət göstərmiş, bu müddətdə şəhər və rayon təhsil şöbələrinin əhatə etdiyi təhsil müəssisələrinin hər birində profilaktik tədbirlər görülmüş, məktəblərdə olan informasiya və kommunikasiya texnologiyaları, kompüter, elektron lövhə və digər avadanlıqlarla bağlı sazlama işləri aparılmış, yaranan qüsurlar yerindəcə aradan qaldırılmışdır. Bu da onlayn tədrisin keyfiyyətinə müsbət təsir etmişdir. Muxtar respublikada pandemiyanın təhsilə mənfi təsirini minimuma endirmək üçün bir sıra əlavə tədbirlər də həyata keçirilmişdir. Çünki bu dövrdə uşaqlar təkcə təhsildən deyil, həm də sosiallaşma, idman və mədəni fəaliyyətlər kimi şəxsiyyətin inkişafına təsir edən bir çox tədbirlərdən də məhrum oldular. Bu dövrdə, xüsusilə uşaqların rifahını və zehni sağlamlığını qorumaq üçün ailələrə və müəllimlərə dəstəyi artırmaq məqsədilə ümumtəhsil müəssisələrində idman klublarının yaradılması isə uşaqların idmandan yayınmalarının qarşısını aldı. Naxçıvan şəhəri və rayonlar daxil olmaqla, ümumilikdə, 118 məktəbdə 12 idman növü üzrə 185 idman klubu yaradılmış və klublar yeni idman avadanlıqları ilə təmin olunmuşdur. Bunlarla yanaşı, mövcud vəziyyətlə əlaqədar olaraq ənənəvi keçirilən müxtəlif müsabiqə, yarışlar da virtual və onlayn formatda təşkil edilir.

Pandemiya dövründə nazirlik tərəfindən işlər izolyasiya qaydaları nəzərə alınmaqla, axsadılmadan davam etdirildi. Tədrisin martın 4-dən dayandırılmasına baxmayaraq, muxtar respublika məzunlarının buraxılış imtahanlarındakı nəticələri 2018-2019-cu tədris ili ilə müqayisədə artmışdır. Yeni nəşrlərin hazırlanması da diqqətdə saxlanılmış, STEAM təhsil metodunun tətbiq edilməsi ilə bağlı dərslik və tədris proqramları, “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)” kitabı, “İstedadlı şagirdlər” albom-kataloqu nəşr olunmuşdur. Məktəb kitabxanaları ayrı-ayrı fənlərin tədrisi üçün 2140 elektron tədris vəsaiti ilə təmin edilmişdir. 2019-2020-ci tədris ilində keçirilən layihə çərçivəsində AMEA Naxçıvan Bölməsinin alimləri xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdləri elmi himayəyə götürərək onlarla birgə, ümumilikdə, 27 elmi rəhbərin və 50 şagirdin iştirakı ilə Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli olan 30 layihə üzrə tədqiqatlar aparmışdır. Ötən dövrdə dünyada pandemiyanın yayılmasına baxmayaraq, bütün layihələrin icrası başa çatdırılmış, hətta həmin layihələrdən 4-ü beynəlxalq, eləcə də respublika əhəmiyyətli müsabiqə və tədbirlərdə uğur qazanmışdır. Hazırda isə 25 layihə üzərində tədqiqat aparılır.

Distant təhsil verə biləcək platformalar arasında onlayn media və televiziyadan bu müddətdə fəal şəkildə istifadə olundu. Bu platformalar sinifdə üzbəüz dərslərin mümkünsüzlüyü zamanı öyrənməni asanlaşdırmağa, müəllim və tələbələr arasındakı qarşılıqlı əlaqəni mümkün qədər artırmağa, eləcə də distant təhsilin ənənəvi təhsilə mümkün qədər yaxınlaşmasına kömək etdi. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Təhsil Nazirliyinin tabeliyinə verilən Televiziya və Radio Verilişləri Redaksiyası artıq tədrisyönümlü fəaliyyətə başladı. “Təhsilin inkişaf yolu”, “Təhsilə dair”, “Dərs vaxtı” verilişləri, eləcə də pandemiya



dövründə uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi üçün qısametrajlı maarifləndirici videoçarxlar, teleanonslar, teatr tamaşaları, həmçinin muxtar respublikada təhsil sahəsində keçirilən tədbir, müsabiqə və yarışlarla bağlı “Təhsildə bu gün” adlı veriliş “Kanal 35” televiziyasında yayımlanmışdır.

### *Əgər pandemiya 30 il bundan öncə Naxçıvana gəlsəydi...*

Vəziyyət necə olardı? Təbii ki, acınacaqlı. Çünki çökmüş iqtisadiyyatla, insan sağlamlığı üçün əvəzolunmaz varlıqlar olan ağacların kəsilməsi, meşələrin qırılması ilə məhv edilmiş təbiətlə, təbii qazın, elektrik enerjisinin olmaması ilə, ərzaq təhlükəsizliyindən söhbət belə, getmədiyi bir dövrdə bu vəziyyətdən çıxış mümkünsüz olardı. Elektrik enerjisinin iki saatdan bir verildiyi, səhiyyə sistemimizin yox dərəcəsində olduğu bir vaxtda bu gün dünyanın inkişaf etmiş ölkələrinin belə, öhdəsindən gələ bilmədiyi pandemiyanın caynağından qurtulmaq möcüzə kimi görünür. Müstəqillik illərində Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyi muxtar respublikada həyata keçirilən tədbirlər nəticəsində bəzi dünya dövlətlərinin belə, öhdəsindən gələ bilmədiyi gözəgörünməz düşmənlə mübarizədə qalib çıxdıq.

### *Pandemiya nə öyrətdi?*

Pandemiya bizə öyrətdi ki, həm müəllimlər, həm də tələbə və şagirdlər mükəmməl rəqəmsal bacarıqlara yiyələnməlidirlər. Belə bacarıqların olmaması müasir texnologiyalardan istifadəni məhdudlaşdırır, təhsilə və fəaliyyətə ciddi maneə yaradır. Çünki XXI əsr texnologiya əsridir. Ali Məclis Sədrinin də dediyi kimi: ***“Əgər XX əsr texnika dövrü idisə, XXI əsr yeni texnologiya əsridir. O dövrdə məktəbdə əmək təlimi otağı yaradılırdısa, bu gün STEAM kabinəsi qurulur, laboratoriyalar istifadəyə verilir, məktəb və tədris dövrün tələbinə uyğunlaşdırılır”.*** Bu baxımdan dövrün tələbinə uyğun olaraq rəqəmsal bacarıqların təkmilləşdirilməsi vacib istiqamətlərdəndir. Nəzərə alsaq ki, bu sahədə də muxtar respublikamızda hər cür şərait yaradılıb, bizə, sadəcə, yaradılan şəraitdən səmərəli istifadə etmək qalır.

**Rəmzi İBRAHİMOV**

# İlin ruzi-bərəkətinin bünövrəsi yaz fəslində qoyulur

***Bolluğun təməlinin qoyulduğu fəsillərin tacı yaz öz gəlişi ilə yurdumuza yeni çalar, ilahi rəng bəxş etməklə yanaşı, ruhumuzu saflaşdırır, ürəyimizdə kök salmış arzularımıza, istəklərimizə çatmaq həvəsimizi artırır. Bu fəsil, eyni zamanda torpağa bağlı, əkinçi, biçinçi, zəhmət adamlarının qayğılı günlərinin başlandığından xəbər verir. İndi ilin elə vədəsidir ki, gün çıxandan ta gün batana kimi kənd adamı əkin yerində alın tərini torpağa qatır, ilin məhsulunun əsasını qoyur. Sərhəd rayonu olan Sədərəyin zəhmət adamları da gününün çoxunu əkin yerlərində, bağlarda keçirir. Kimi şitil əkir, kimi üzüm tağlarını torpaqdan çıxarıb bağlamaqla məşğuldur, kimisi isə yeni ting əkib calaq vurmaqla. Təkcə Sədərəkdə deyil, ilin-günün bu vədəsində muxtar respublikamızın hansı kəndinə yolunuz düşsə, orada zəhmətkeş insanlarla iş başında rastlaşarsınız.***



Abdulla Sadiqov da həmişə adla deyilən Sədərək üzümünü əkib-becərməklə məşğul olan halal zəhmət adamıdır, digər kənd adamları kimi torpağa bağlı ömür sürənlərdəndir. Onunla elə iş başında həmsöhbət oluruq. Müsahibim bildirir ki, üzümçülük zəhmət tələb edir. Belə ki, Naxçıvanın iqlimi qışda çox sərt olduğundan bütün üzüm kolları payızda budanır, bükülür və torpağa basdırılır. Yazda bu tənəkləri vaxtında torpaqdan çıxarmaq lazımdır. Əgər bu iş düzgün aparılmazsa, tənəklərə ziyan dəyə bilər. Dədə-babadan belə bir söz deyərlər: "Elə ki bayram aşını yeyib qurtardın, səhəri gün üzüm tənəkləri torpaqdan çıxarılmalıdır". Gördüyünüz bu kolları torpaqdan çıxarıb yenidən əvvəlki yerlərinə iplə bağlayanda bunu ehtiyatla etmişik ki, kolun budaqları zədələnməsin. Yarpaqlayandan bir az sonra üzüm budanır. Bu zaman yenicə əmələ gələn qoralar zədələnməməli və üzüm elə budanmalıdır ki, həmin salxımlar çox da açıqda qalmasın. Günəşin istisi onu yandırmasın.



Müsahibim tənəklərdəki yarpaqlardan yığa-yığa onu da diqqətimizə çatdırır ki, yaz vaxtı bu yarpaqlardan yığıb nübar dolma bükmək elimizin adətidir. Tənəklərin uclarındakı yarpaqlardan toplamaq lazımdır ki, həm bişirdiyimiz yemək dadlı olsun, həm də üzüm kolu zədələnməsin. Bu bitki o qədər bərəkətlidir ki, yarpağı da, meyvəsi də, qurumuş kolları da insanların əlindən tutur.

Abdulla dayı deyir ki, rayonda 50-dən çox üzüm növü var. Bağ salınarkən arxların arası 3 metr olmaqla, tənəklər də bir-birindən 2 metr məsafədə əkilir. Rayonda bu üsulla əkilən, yaşı 100-dən yuxarı olan bağlar var. Yeni bağlar da salırıq ki, üzümün ayağı torpağımızdan çəkilməsin. Bağlarda "teyti", "nəbi", "xəlilli", "hüseyni", "təbrizi", "mərəndi", "şəfiyi", "mələyi", "əsgəri", "xatını", "xangörməz", "aldərə", "qara əsgəri", "ağ, qırmızı", "sarı və qara kişmişlər", "hənəqırna", "qoçbaşı" kimi dadı damaqdan getməyən üzüm növləri yetişdirilir. Zəhmət adamı bir məqamı da xüsusilə vurğulayır ki, əvvəllər kəndlərimizdə sahibsiz qalan, əkilməyən torpaq sahələrinə baxanda adamın ürəyi ağrıyırdı. Amma indi bütün bu çətinliklər aradan qaldırılıb, bir traktorun, kombaynın gündəlik işi, keçmişin aylarla çəkilən əzab-əziyyətini arxada qoyub. Artıq keçmişdə çəkdiyimiz çətinliklərdən əsər-əlamət belə, yoxdur, o dərəcədə ki övladlarımızı bir zamanlar hansı çətinlikləri yaşadığımıza inandırmaq belə, qeyri-mümkündür.

Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da övlad kimi qoruyub, qayğısına qalıb, qocaman ağacların yerini versin deyə, yenilərini əkib, onların böyübüb ərsəyə çatmasına qayğı ilə yanaşıb. Axı ağac da insan kimi qulluq istəyir.

Vəzir dayı kənddə adla deyilən bağbanlardandır. Yaz fəslinin bağ qayğıları haqqında onunla həmsöhbət oluruq:

– Ölkəmizin iqlimi, məhsuldar torpaqları, digər təbii və əmək resursları meyvəçiliyin inkişafı üçün böyük imkanlar yaradır. Ağacların sayını çoxaltmaq, daha yaxşı meyvə əldə etmək üçün tinglərdən çox istifadə olunub. Əlverişli torpaq-iqlim şəraiti olan bu ərazidə xalq seleksiyası yolu ilə çoxlu sayda meyvə, tərəvəz və üzüm sortları yaradılmasına və becərilməsinə şərait var. "Bağa baxarsan bağ, baxmazsan dağ olar", – deyiblər. Gərək əziyyət çəkəsən ki, bəhrəsini də görəsən. Calaq vurulması, tinglərin əkilməsi və qulluq qaydaları haqqında danışan təsərrüfatçı bildirir ki, bağçılıqda əsas amillərdən biri də calaq işidir. Bu, çox incə və ustalıq tələb edən işdir. Yay mövsümündə məhsuldar, meyvəsi dadı və keyfiyyəti ilə seçilən mədəni ağaclara nişanələr qoyulur. Calaq vaxtı həmin ağacların birillik zoğundan göz kimi istifadə olunur. Sentyabrın 20-dən sonra vurulan calaqların sarğısı mart ayında kəsilir.



Calanmış gözlər yazda – mart ayında oyanmazdan çox əvvəl hər toxmacanın gözdən yuxarı hissəsi kəsilib atılır. Calaq iki ilə başa gəlir. Diyarımızda elə ağaclar var ki, onların tinglərini alıb digər rayonlarda əksələr də, buradakı kimi məhsul əldə edə bilmirlər. Onların meyvəsi başqa yerlərdə cırlaşır. Məsələn, elə götürək göyçəni, bu ağac ölkəmizin müxtəlif yerlərində var, amma oradakı ağacların meyvəsi Naxçıvan torpağında bitən göyçə kimi olmur. Zəfəran hülüsü başqa rayonda yetişdirilə bilsə də, buradakı ətri vermir. Hər torpağın özünəməxsus meyvə- tərəvəzləri var, elə ona görə də mən ting mövsümündə bağ salmaq istəyənlərə həmişə deyirəm ki, xaricdən gətirilən tinglərdən yox, öz iqlim şəraitimizə uyğun yetişdirilən tinglərdən alıb əksinlər. Onda daha az zəhmət müqabilində daha yaxşı məhsuldarlıq əldə edərlər. Ağac var meyvəsinin çəyirdəyi, ağac var calaq yolu, ağac da var ki, çubuqları ilə artırılır. Bir sözlə, torpağın dilini bilməklə yanaşı, gərək ağacların da dilini biləsən ki, zəhmətinin qarşılığını da alasan. Meyvə ağacları əkilməzdən əvvəl yeri şumlamalı, ağacın tez böyüməsi üçün torpağa yaxşı qulluq olunmalıdır.

Müsahibim onu da deyir ki, əkin zamanı havanın temperaturuna diqqət etmək lazımdır. Hava şaxtalı və ya kəskin isti olmamalıdır. Torpağın quruluğu və nəmliyi də önəmlidir. Ting əkinləri torpaq orta nəmlikdə olduğu zaman aparılmalıdır. Bağban erkən yaz dövründə apardığı budama işlərindən də danışdı. Dedi ki, budama ağacın növündən, yaşından asılı olaraq aparılır. Əgər ağacın yaşı çoxdursa, budama cavanlaşdırma məqsədi daşıyır. Bunun üçün ağacın çətirinin forması saxlanılmaqla gövdənin baş hissəsindən, əsasən, xəstə, quru, qurumaqda olan və həşəratlarla sirayətlənmiş budaqların kəsilməsinə önəm verilməlidir. Kəsilmiş hissələrə isə xüsusi hazırlanmış ağac boyası sürtülməlidir. Bax, bu gördüyünüz ərik ağaclarındakı kimi, digər meyvə ağaclarında budama ancaq xəstə, bar verməyən, quru budaqların kəsilməsi ilə həyata keçirilir. Yox, əgər ağacın çətiri küləyin təsirindən bir tərəfə inkişaf edibsə, onda budama çətirin formalaşdırılması istiqamətində, gövdəyə yaxın hissədən aparılmalıdır. Əks-təqdirdə tam kəsilməyən hissə yağışdan çürüyərək həşəratların məskəninə çevrilir, sonda həmin budağın və gövdənin qurumasına gətirib çıxarır.

Vəzir dayının sözlərinə görə, ağaclarda cücərti başlanıbsa, budama işini aparmaq olmaz. Yalnız sınmış budaqlar kəsilib götürülməli və həmin hissəyə ağac boyası sürtülməlidir. Hazırda biz də digər bağbanlar kimi budamadan sonrakı dərmanlama işinə diqqət edirik. Düzgün qulluq göstərilməyən ağacın barı da yaxşı olmur. Suvarma vaxtlı-vaxtında aparılmalı, ağacların dibi tez-tez boşaldılmalıdır. Müsahibim onu da bildirir ki, bu gün bağdakı ağacların belə sağlam olmalarının əsas səbəbi yazın ilk aylarında onlara yaxşı qulluq edilməsi ilə bağlıdır. Vaxtında düzgün qulluq olunan ağaclar yaxşı da bar verir. Ərik, göycə, yay alması ağaclarının meyvələri, digərlərinin isə çiçəkləri dərmanlanır. Ağacların dibləri boşaldılır, gübrə və su verilir.

Belə bir el misalı var: torpaqda izin olsun ki, süfrədə üzün olsun. Çünki torpaq adamı naümid buraxmaz. Və ən əsası torpaq bu gün Naxçıvan kəndlisi üçün ən yaxşı iş yerinə çevrilib. Bacarıb dövlətimizin yaratdığı bu şəraitdən istifadə edənlər öz gün-güzəranlarını qurmaqla bərabər, muxtar respublikada kənd təsərrüfatının inkişafına da öz töhfələrini verirlər. Onu da qeyd etməli yerinə düşər ki, bu sahənin inkişafına əsas təkan verən amil Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunan Dövlət proqramlarının düzgün icrası ilə sıx bağlıdır və heç şübhəsiz ki, bu proqramların icrası kənd təsərrüfatı məhsullarının istehsalının, emalının stimullaşdırılmasına öz töhfəsini verəcək.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Yeni yaşıllıqlar salınıb, təmizlik işləri aparılıb

*Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biridir.*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasətin bu gün ölkəmizdə uğurla həyata keçirilməsinin nəticəsidir ki, son illər muxtar respublikada da yaşıllıqların həcmi dəfələrlə artıb, qədim diyarımız yaşıllıqlar məskəninə çevrilib. Ötən dövr ərzində diyarımızda ekologiyanın mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində də mühüm tədbirlər həyata keçirilib, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilib, bəzək kolları, həmişəyaşıl, həmçinin meşə ağaclarının əkilməsi, müntəzəm olaraq onlara qulluq edilməsi diqqət mərkəzində saxlanılıb, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər prioritet vəzifəyə çevrilib. Cari ildə də bu tədbirlər davam etdirilməkdədir.

Aprelin 24-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkili ilə diqqəti çəkib. Naxçıvan şəhərinin sakinləri, idarə, müəssisə və təşkilatların nümayəndələri bu tədbirdə fəallıq göstəriblər. Həmin gün "Duzdağ" hotelə gedən yolun kənarındakı bağda və dairəvi avtomobil yolunun kənarlarında 85 meşə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri də əvvəlki iməciliklərdə olduğu kimi, əzmkarlıq nümayiş etdirib, Kürkənddəki 1 hektarlıq meyvə bağında və digər ərazilərdə yaşıllıqlara aqrotexniki qulluq göstərib, ağartma və suvarma işləri aparılıb.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Qahab-Yarımca avtomobil yolunun kənarlarındakı yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib, ağacların dibləri alaq otlarından təmizlənib və ağartma işləri aparılıb.

Bağlar diyarı Ordubadda da iməciliklər mütəşəkkilliklə keçirilib. Rayonun iməcilik ərazilərində yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib, budama və suvarma işləri görülüb.Culfa rayonunda da həmin tədbirlər davam etdirilib.

Kəngərli rayonunda magistral yolun Qabıllı hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərilib, 100 meyvə ağacı əkilib.

Şahbuzlular Heydər Əliyev Su Anbarının yaxınlığındakı 7 hektarlıq ərazidə və Mərəlik kəndindəki üzüm bağında yaşıllıqlara aqrotexniki qulluq göstərib, budama və suvarma işləri görülüb.

Sədərəklilər Şəhidlər xiyabanı ərazisində bərpa məqsədilə 80, gömrük məntəqəsinə gedən yolun kənarlarında 3600, Bayraq Meydanı ərazində 1500 gül kolu, Dəmirçi kəndi ərazisində yol kənarlarına 350 meyvə ağacı əkiblər.

İməciliklərdə 18 min 850 nəfər iştirak edib. Ümumilikdə, 5715 olmaqla, 85 meşə, 450 meyvə, 5180 gül və bəzək kolları əkilib.

**Xəbərlər şöbəsi**

# Qarnizon xəbərləri

Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının minaatan bölmələri ilə döyüş atışlı taktiki-xüsusi təlim keçirilib.



Minaatan bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Ərazinin vizual kəşfi aparıldıqdan sonra atəş mövqelərini tutan bölmələr minaatan qurğularından döyüş atışlarını yerinə yetiriblər. Yerdəyişmə edərək planlı və plandan kənar hədəfləri məhv edən heyətlər qarşıya qoyulmuş məqsədlərə nail olublar.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında istismarda olan avtomobil texnikalarına baxış-müsabiqəsi keçirilib. Ordu, birləşmə və hissələrə təhkim edilmiş müxtəlif markalı və təyinatlı minik avtomobillərinin, mikroavtobus və avtobusların cəlb edildiyi müsabiqənin sonunda qaliblər mükafatlandırılıblar.

**Kənan CƏLİLOV**

# Kupon uduşu kampaniyası keçirilib

Naxçıvan şəhərindəki Əyləncə və İstirahət Mərkəzində "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının 5-ci kupon uduşu kampaniyası keçirilib. Tədbirdə Əyləncə və İstirahət Mərkəzinin bölüm müdiri Şahid İbrahimov çıxış edərək bildirib ki, ötən il həyata keçirilməsi nəzərdə tutulan uduş kampaniyası müəyyən səbəblərdən məhz 2021-ci il aprelin 24-nə təsadüf edib. Ötən il fevralın 2-dən avqustun 20-dək "Cahan" AVM-dən alış-veriş edən müştərilərə minlərlə uduş kuponu hədiyyə olunub. 5 paltaryuyan maşın, 10 televizor, 5 kondisioner, 4 mebel dəsti, 1 "Opel Corsa" avtomobili uduşa qoyulub. Bundan əlavə, elektronika və mebel mağazalarından, Əyləncə və İstirahət Mərkəzindən və "Banu" marketlərindən nağd alış-veriş edən alıcılara 15-25 faiz endirimlərlə yanaşı, hədiyyələr də təklif edilib.



Sonra 5-ci kupon uduşu kampaniyasına start verilib, uduş kuponları 6 nəfərdən ibarət nümayəndə heyətinin müşahidəsi ilə şəffaf şəkildə keçirilib. Tədbirdə, həmçinin Vətən müharibəsində müzəffər Ordumuzun qazandığı parlaq qələbəni əks etdirən slaydlar nümayiş olunub, vətənpərvər mahnılar səsləndirilib.

***"Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının mətbuat xidməti***

Mütəxəssis sözü

## Düzgün idman növünün seçilməsi uşaqların gələcək uğurlarının və sağlamlıqlarının rəhnidir

***Muxtar respublikamızda hər bir sahə kimi, idman sahəsinə də böyük dövlət qayğısı göstərilir. Bunun ifadəsidir ki, Naxçıvan şəhəri və muxtar respublikanın bütün rayonlarında idman avadanlıqları ilə təchiz olunmuş müasir idman obyektləri tikilib, idmançıların və əhalinin istifadəsinə verilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı” və 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” diyarımızda idmanın inkişafına, kütləviliyinə nail olmaq, muxtar respublikanın idman potensialını və karyerasını daha da zənginləşdirmək baxımından mühüm əhəmiyyətə malik dövlət sənədləridir.



Bəs yaradılmış bütün bu şəraitdən necə istifadə olunmalıdır ki, yüksək səviyyədə peşəkar idmançılar və ümumilikdə, idmanla düzgün məşğul olan sağlam nəsil yetişdirə bilək. Uşaqlar nə vaxt və necə idmanla məşğul olmalıdırlar?

Əgər biz tam sağlam, dünyagörüşlü, müasir dövrün standartlarına cavab verən nəsillər yetişdirmək istəyiriksə, ailədə uşaqların əqli, estetik, ümumi tərbiyəsi ilə yanaşı, fiziki inkişafı üçün də şərait yaradılmalıdır. Valideynlər öz uşaqlarının sağlamlığını möhkəmləndirmələrinə, çevik, qüvvətli olmalarına kömək etməlidirlər. Amma unutmaq olmaz ki, hər bir sahədə olduğu kimi, idman sahəsində də həddən artıq məşq və düzgün təşkil olunmamış fəaliyyət sağlamlığa yox, əksinə, onu itirməyə, fiziki xəsarətə gətirib çıxara bilər. Dahi Nizami Gəncəvi demişkən: “Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verər o da”. Fiziki inkişafın düzgün təşkili üçün fiziki tərbiyə müəllimləri ilə sıx əlaqə saxlanılmalıdır. Həmçinin idmana başlamazdan əvvəl uşağın sağlamlığının yoxlanılması zəruridir. Yalnız bundan sonra uşaq yaşına və orqanizminin tələblərinə uyğun idman növü ilə məşğul ola bilər.

Bir çox mütəxəssisin fikrincə, ailədə uşaqların fiziki tərbiyəsi aşağıda göstərilən forma əsasında təşkil edilir:

1. Səhər gigiyenası, gimnastika məşğələsi 6-7 ümumi inkişafetdirici hərəkətlərdən ibarət olmaqla, hər gün icra edilir;

2. Uşaqların boş vaxtlarında ev şəraiti nəzərə alınmaqla müəllim tərəfindən verilmiş kompleks hərəkət elementləri texnikasının icrası. Bura açıq havada müxtəlif idman alətləri ilə hərəkət, idman oyunları elementləri və müxtəlif oyun forması daxildir;

3. Yorğunluğu çıxarmaq məqsədilə bir neçə kompleks hərəkətlər verilir. Xüsusilə tənəffüslə əlaqədar ümumi inkişafetdirici hərəkətlərdən istifadə olunur.

Kiçikyaşlı uşaqların inkişafında, əsasən, mütəhərrik oyunlardan istifadə edilir. Bu oyunlar uşaqları təkcə fiziki olaraq sağlamlaşdırmır, həm də onlarda Vətənə məhəbbət, kollektivçilik, hərbi bacarıqlar kimi bir çox müsbət keyfiyyətləri aşılayır. Bu səbəbdən uşaqların məktəbəqədər dövrdə və ibtidai sinifdə öz yaşına uyğun mütəhərrik oyunlarla məşğul olması təkcə idman mütəxəssisləri tərəfindən deyil, psixoloqlar tərəfindən də tövsiyə edilir.

1974-cü ildə ümummilli lider Heydər Əliyev idmanın uşaqlar üçün necə əhəmiyyətli olduğunu öz çıxışında, xüsusilə qeyd etmişdir: ***“Uşaqlar, oğlan və qızlar məhz məktəbdə ümumtəhsil fənləri üzrə bilik əldə etməklə yanaşı, fiziki cəhətdən də inkişaf etməli, orada hər bir oğlan və qıza bütün ömrüboyu bədən tərbiyəsi və idmana məhəbbət bəsləmək duyğusu aşılanmalıdır. Hər bir şagird başa düşməlidir ki, insan fiziki cəhətdən mətinləşmədən nə istehsalatda, nə elmdə, nə də mədəniyyətdə yüksək zirvələr fəth edə bilməz”.*** Heç şübhəsiz ki, fiziki cəhətdən hazır olmayan bir insan əqli cəhətdən nə qədər inkişaf etmiş olsa da, yenə özündə çatışmazlıq hiss edəcək.

Bəs uşaqlar idmana necə, hansı yaşda və ən əsası hansı idman növü ilə başlamalıdırlar? Bu barədə bir çox müxtəlif dünya təcrübələri mövcuddur. Buna misal olaraq alman təcrübəsini göstərmək olar. Bu, bir qədər yeni təcrübədir. Belə ki, uşaq 14 yaşına qədər üzgüçülük, gimnastika və yüngül atletika ilə məşğul olur, 14 yaşına çatdıqda isə artıq komanda idman növləri və yaxud karate, cüdo, güləş, boks kimi yüksəkgərginlik tələb edən idman növləri arasından seçimini edir. Ümumiyyətlə, kiçik yaşda zədə xarakterli və yaxud həddən artıq orqanizmə ağır gələ biləcək idman növləri ilə məşğul olmaq düzgün hesab edilmir. Düzgün seçilməmiş idman növü azyaşlının əzələ aparatına zərbə vura, nəticədə isə, qısaboyluluq yarana bilər. Həm də kiçik yaşda alınmış zərbə ömürboyu davam edəcək fiziki və əqli qüsurlara gətirib çıxara bilər. Bir çox idman mütəxəssisinin, psixoloqun və



həkimin yekdil fikrinə görə, idmanın yaşa uyğun bölgüsü aşağıdakı kimi ola bilər:

***İdman növünün başlama yaşı:***

*Yüngül atletika – 10-12 yaş*

*Basketbol – 7-8 yaş*

*Boks – 10 yaş*

*Velosiped – 10 yaş (professional velosiped nəzərdə tutulur)*

*Gimnastika – 6-7 yaş*

*Xizək – 10-11 yaş*

*Futbol – 6 yaş*

*Üzgüçülük – 3-4 yaş*

*Cüdo – 8-10 yaş*

Ümumiyyətlə, 10 yaşdan əvvəl boks, ağırlıqqaldırma kimi idman növləri ilə məşğul olmaq məqsədəuyğun hesab olunmur. Çünki bədənə ağırlıq salan bu idman növü zərərli ola bilər. Xüsusilə bu dövrdə uşağın başlayacağı idmana, fiziki qurulușunun uyğun olub-olmadığını nəzərə almaq çox əhəmiyyətlidir.

Gənclik dövrü komanda işinə istiqamətli idman növü uyğundur. Ancaq seçilən idmana bağlı olaraq tək istiqamətli məşqlərin edilməsi doğru deyil. Bu vəziyyət uşağın skelet sistemi üçün mənfi təsir yarada bilər. Çünki skelet sistemi çox həssasdır, böyümə valları deyilən boyuzanma və inkişaf valları yüklənmədən və zədələrdən mənfi təsirlənə bilər. Bunun üçün ailələr uşaqlarının erkən yaşlarından ağırlıqlarla işinə icazə verməməlidir. Bu dövrlərdə ağırlıq və qüvvət məşqləri edilməməlidir. 2-3 yaşlarda qaçma, tutma və tullanma kimi təməl hərəkətləri edə bilirlər. Bu səbəbdən bunları ehtiva edən bağçada qaçma, getmə, rəqs etmə, suda nəzarət altında oynama və təcrübəli şəxslər tərəfindən gimnastika təhsili ola bilər. 4-6 yaşlarda rəqs, üzmə, gimnastika, ip atlama və üçtəkərli velosipedə minmək kimi idmanlar idealdır. 7-10 yaşlarda gimnastika, üzmə, futbol, basketbol, voleybol, həndbol, velosiped, tennis və üzmə kimi idmanlarla əlaqədar təməl təhsilə yönləndirilə bilər. 10 və yuxarı yaşlarda əvvəlki yaşlarda başladıqları idmanlara daha mütəşəkkil davam etməklə atletizmə, güləşə başlaya bilər. Sonra isə güc tələb edən boks, taekvando və karateyə də keçə bilərlər.

*Əgər övladlarımızın professional idmançı kimi yetişməsini istəyiriksə, bu yolun uzun və bir qədər çətin olduğunu dərk etməliyik. Tələskənlik bu işdə xeyir gətirə bilməz. Unutmayın, idman bir mədəniyyətdir, bir həyat tərzidir. Bu yolda verilən qərarlara mütləq diqqət olunmalıdır. Və mütləq bir mütəxəssislə məsləhətləşilməlidir. İdman sağlamlığın rəmzidir! Bunu uğursuzluğa və bədbəxtliyə çevirməyək.*

**Xatın AĞAYEVA**
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi***

## Nizami Gəncəvinin 880 illik yubileyi əcnəbi tələbələrin iştirakı ilə qeyd olunub



Naxçıvan Dövlət Universitetində əcnəbi tələbələrin təşkilatçılığı ilə “Nizami hər sözü demiş birinci” adlı ədəbi- bədii tədbir keçirilib. Öncə “Nizami Gəncəvi – 880” adlı sənədli film nümayiş olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev xarici tələbələrin belə tədbirlərdə iştirakını yüksək qiymətləndirib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov dünya şöhrətli dahi şair haqqında məlumat verərək qeyd edib ki, Nizami Gəncəvi nəinki bütün Şərqdə, həmçinin Qərb aləmində də tanınır, öyrənilir.

Sonra xarici tələbələrin Nizami Gəncəvinin əsərlərinin bədii qiraət nümunələrindən ibarət videoçarx nümayiş olunub. Xarici tələbələr Nizami Gəncəvinin şeir və qəzəllərini bədii qiraət edib, şairin poemalarından hissələri səhnələşdiriblər. Tədbirin sonunda həmin tələbələr universitet rektorluğu tərəfindən təşəkkürnamə ilə təltif ediliblər.

**Etibar DƏRBƏNDƏLİYEV**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Şahmat turnirləri keçirilib

*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən daha bir tempo turnirinə yekun vurulub.*




Naxçıvan Şahmat Mərkəzində təşkil edilən turnirdə muxtar respublikanın 100 dərəcəli şahmatçısı və müəllimləri mübarizə apardılar. 9 turdan ibarət olan və dairəvi sistem üzrə keçirilən turnirin qalibi bütün görüşlərini qələbə ilə başa vuran FİDE ustası Pərviz Qasımov (2337) olub. 7,5 xal toplayan beynəxalq usta Toğrul Həsənzadə (2322) turniri ikinci pillədə başa vurub. 3 zəka sahibi – Sadiq Qarayev (1781), Əli Əliyev (1613) və Hüseyn Seyid (1660) isə 7 xalla 3-cü 5-ci yerləri bölüşüblər.

* * *

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası, Sədərək Rayon Təhsil Şöbəsi, Yevlax Şəhər Uşaq-Gənclər İdman Şahmat Məktəbi, Türkiyənin Muğla Böyük Şəhər Bələdiyyəsi və Pakistan Akıl Sporları Satranc Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan, Türkiyə və Pakistan şahmatçı şagirdləri arasında “8 Online Uluslararası Külübler Lichess” şahmat turniri keçirilib.

*Lichess.org* internet platforması vasitəsilə keçirilən görüşdə Azərbaycanın rayon və şəhərlərindən İda Şahmat klubu, Yevlax, Balakən, Samux, Mingəçevir, Göyçay, Oğuz, Tərtər Gənclər və İdman Şahmat məktəbləri, Naxçıvan Muxtar Respublikasının Sədərək və Kəngərli rayon Uşaq-Gənclər Şahmat məktəblərinin komandaları, Türkiyə Cümhuriyyətinin İzmir Deha, Muğla, Fathiyə, Antakya, Karşıyaka, “Ünlem”, “Ünlem Akedemi”, “Yıldız Satranc Akedemi”, Ankara, “Serdas”, “Turğutlu Deha”, “Kaplan Satranc” mərkəzləri və klubları, Pakistan Respublikasının “Pakistan Akıl Sporları”, “Puas Master”, “Bvs”, “Mixed School”, “TCF Cowasjee”, “C.A.S School”, “SMB Fatima” şahmat klub və mərkəzləri olmaqla, 27 komanda iştirak edib.

Keçirilən görüşdə hər komandada 30 müxtəlif dərəcəli şagird iştirak edib. Ümumilikdə isə 800-ə yaxın müxtəlif dərəcəli zəka sahibi qələbə uğrunda mübarizə aparıb.

*lichess.org* internet platforması vasitəsilə keçirilən görüş “YouTube” üzərindən canlı yayımlanıb.

**Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı kafedralar üzrə müsabiqə elan edir*

***Kafedralarda boş olan vəzifələri tutmaq üçün***

1. Azərbaycan tarixi kafedrası – dosent – 1 yer
2. Azərbaycan dili və ədəbiyyatı kafedrası – dosent – 1 yer
3. Biologiya kafedrası – dosent – 3 yer
4. Bədən tərbiyəsi və idman kafedrası – dosent – 1 yer
5. Dünya iqtisadiyyatı və menecment kafedrası – dosent – 1 yer (0,5 ştat)
6. Ümumi tarix kafedrası – dosent – 1 yer (0,5 ştat)
7. Ümumi təbabət və kliniki fənlər kafedrası – dosent –1 yer (0,5 ştat)
8. Ümumi riyaziyyat kafedrası – dosent – 1 yer
9. Ümumi və nəzəri fizika kafedrası – dosent –1 yer
10. Kimya kafedrası – dosent –1 yer
11. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası – müəllim – 1 yer, baş müəllim – 1 yer
12. Musiqi təlimi kafedrası – baş müəllim – 1 yer
13. Orkestr alətləri və dirijorluq kafedrası – dosent – 1 yer
14. Pedaqogika və psixologiya kafedrası – baş müəllim – 1 yer
15. Roman – german dilləri kafedrası – baş müəllim – 1 yer
16. Təməl tibb fənləri kafedrası – dosent – 1 yer (0,5 ştat)
17. İngilis dili və tərcümə kafedrası – baş müəllim – 1 yer
18. İngilis dili və metodika kafedrası – baş müəllim – 1 yer
19. İnformatika kafedrası – dosent – 1 yer
20. İqtisadiyyat kafedrası – müəllim – 1 yer (0,5 ştat)
21. Fortepiano kafedrası – baş müəllim – 1 yer, professor – 1 yer (0,5 ştat)
22. Fəlsəfə və sosial iş kafedrası – professor –1 yer
23. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası – baş müəllim – 1 yer, dosent – 1 yer (0,5 ştat)

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

## Elan

“Babək Sirab” ASC-nin rəhbərliyi səhmdarların nəzərinə çatdırır ki, 16 iyun 2021-ci il tarixdə saat $11^{00}$-da cəmiyyətin inzibati binasının iclas zalında səhmdarların yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Görülən işlərin illik hesabatı*

*2. Görüləcək işlər barədə.*

### *İtmişdir*

Babək şəhəri, H.Cavid küçəsi 27-də yaşayan Salmanov Fərman Muxtar oğlunun adına olan $215^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Məmmədov Əyyub M.Həsən oğlunun adına verilmiş JN-450 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 351